

# Vətən sevdalı qəhraman

***İkinci Qarabağ müharibəsində canı bahasına 44 günə xalqına qələbə sevincini yaşadan Vətən övladlarının hər birini parlaq günəşə bənzədirlər. Astara rayonunun Pəlikəş kəndində boya-başa çatan Tarif Qədim oğlu Cəfərzadə də onların arasındadır. Tarif özünü Vətən torpaqlarının azadlığı uğrunda fəda edəndə ömrünün 18-ci ilini yaşayırdı. Qaldı ki, qısa zaman kəsiyində yaşının çərçivəsinə sığmayan, heç zaman unudulmayan bir tarix yazdı. Bu tarixlə bütöv bir xalqın qəhrəmanlıq simvoluna çevrildi. Zaman-zaman ürəklərdə yuva qurmaqla bərabər, həm də dövlət tərəfindən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, "Vətən uğrunda" və digər medallara layiq görüldü.***

Bəli, həyatı dərk edən gündən Qarabağda baş verən qanlı hadisələr Tarifi çox narahat edir. Odur ki, Vətənin qeyrətini hər şeydən üstün tutan Astara elinin qəhrəman oğlu 2020-ci ildə ordu sıralarına erməni cəlladlardan qisas almaq arzusu ilə yola düşür. Cəbhə xəttində müqəddəsliyinə tapındığı, ilahi bir məhəbbətlə bağlandığı doğma Azərbaycana övladlıq borcunu şərəflə verir. Son dərəcə mərd, cəsur, vətənpərvər bir gənc olan Tarif olduğu bütün təlimlərdə döyüş igidliyinə görə fərqlənir və erməni dığalarını əzməkdən ötrü hərbi sirlərini mükəmməl öyrənir. Beləcə, nümunəvi xidməti, ən əsası Vətənə qurban getməyə hər an hazır olması ona əsgər və zabitlərin hörmətini qazandırır.

İgid əsgər sentyabrın 27 -də İkinci Qarabağ müharibəsi başlayanda əlində silah ən ağır döyüşlərə qatılır və son qarış Vətən torpaqların azad olunacağı günədək yağı düşmənlə vuruşmağa and içir. Hər dəfə müharibə meydanına girəndə dığalardan ürəyincə qisasını ala bilir. Qarış-qarış torpaqlar azad olunduqca Tarifin qollarına yeni bir güc, qüvvə gəlir. 37 gün min əzab-əziyyətli yollar keçən Vətən sevdalısı sözün həqiqi mənasında hər qarış torpaq uğrunda şücaət göstərir. Erməni quldurlarına verdiyi itkilərin sayı bilinmir. Xocavənd rayonunda gedən ağır müharibədə də Tarif düşmənlə son gülləsinə kimi döyüşüb aldığı qəlpə yarası nəticəsində həlak olur.

Vətən sevgisi şəhid Tarif Cəfərzadəyə ürəklərdə yaşamaq səadəti bəxş edibdir. Astara camaatı Azərbaycanın yeni, şanlı tarixinə adını yazan qəhrəman oğlunu hər yerdə, hər zaman böyük ehtiramla xatırlayır. Qərinələr keçəcək, gələcək nəsillər üçündə bu belə olacaqdır...

***Zəfər Orucoğlu, AJB üzvü***